**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 31 iyul tarixli, 251 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ödənişli arxiv xidmətlərinin siyahısının və onların göstərilməsinə görə xidmət haqlarının məbləği"ndən istifadə haqqında**
**YADDAŞ**

## 3. Ödənişli arxiv xidmətlərinin təşkili və tənzimlənməsi
## (ÇIXARIŞ)

3.1. Dövlət arxiv xidməti təşkilatlarında hüquqi və fiziki şəxslərə ödənişli arxiv xidmətləri onların "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinə uyğun olaraq yazılı ərizələri əsasında göstərilir.

3.2. Ödənişli arxiv xidmətlərinin göstərilməsi barədə hüquqi və fiziki şəxslər tərəfindən edilən ərizələr müvafiq dövlət arxiv xidməti təşkilatına daxil olduğu gündən qeydiyyata alınır və xidmətin növündən asılı olaraq aidiyyəti üzrə icraya yönəldilir.

...

3.4. Hüquqi və fiziki şəxslərə arxiv xidmətləri müvafiq xidmət növü üçün bu Sənədin 2-ci hissəsi ilə müəyyən edilmiş xidmət haqqının Azərbaycan Respublikasının Milli Arxiv İdarəsinin xüsusi xəzinə hesabına köçürülməsini təsdiq edən bank və ya poçt sənədi (qəbz) təqdim olunduğu halda göstərilir. **Tələb olunan arxiv məlumatı aşkar edilmədiyi halda müraciət edənə yazılı məlumat verilir və xidmət haqqı üçün ödənilmiş məbləğ geri qaytarılmır.**

*...*

**3.7. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq şəhid ailələrinə, əlilliyi müəyyən edilmiş şəxslərə arxiv sənədlərindən istifadə etməklə informasiyanın verilməsi xidmət haqqı ödənilmədən icra edilir.**

3.8. Dövlət arxiv xidməti təşkilatları aşağıdakı hallarda hüquqi və fiziki şəxslərə arxiv xidmətlərinin göstərilməsindən imtina edə bilərlər:

...

3.8.6. fiziki şəxslər bu Sənədin 3.1-ci bəndi ilə müəyyən olunmuş sənədləri ərizəyə əlavə etmədikdə və ya natamam etdikdə;

...

3.8.8. müvafiq xidmət üçün müəyyən olunmuş xidmət haqqı ödənilmədikdə.

...

3.11. Müraciət edənin təşəbbüsü əsasında sürətləndirilmiş arxiv məlumatının verilməsi, 1-3 iş günü üçün müvafiq xidmət üzrə müəyyən olunmuş xidmət haqqının üç misli, 4-7 iş günü üçün iki misli olmaqla müəyyən edilir *(*nümunəyə bax).*

3.12.Tərəflər arasında imzalanmış müqaviləyə uyğun olaraq göstərilən xidmətlərin icra müddəti müqavilə əsasında müəyyən edilir.

QEYD: Sosial hüquq xarakterli sorğualara aid olan sorğu növlərinin siyahısı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 14 fevral tarixli 47 nömrəli Qərarı ilə təsdiq olunmuş "Milli Arxiv fondu sənədlərindən istifadə qaydaları"nın 3.3-cü bəndinə və Azərbaycan Respublikası Milli Arxiv İdarəsi Kollegiyasının 2013-cü il 25 dekabr tarixli, Q-04 nömrəli Qərarı ilə təsdiq olunmuş "Arxiv arayışlarının, arxiv sənədlərindən çıxarışların, arxiv sənədlərinin surətlərinin verilməsi üçün müraciətin qəbulu üzrə İnzibati Reqlament"ə əsasən müəyyən edilir *(**nümunəyə bax).*

### 2.3. Arxiv sənədlərindən istifadə edilməklə informasiyanın verilməsi xidməti üzrə

**NÜMUNƏ**

| Maddənin №si | Xidmətin adı | Ölçü vahidi | Xidmətin baza qiyməti (15-30 iş günü ərzində verildikdə) | Sürətləndirilmiş qaydada (4-7 iş günü ərzində verildikdə) | Sürətləndirilmiş qaydada (1-3 iş günü ərzində verildikdə) |
|---|---|---|---|---|---|
| **2.3.5** | Fiziki və hüquqi şəxslərin müraciətlərinin (bir mövzu üzrə) cavablandırılması: | arxiv arayışı; çıxarış; surət; məktub; siyahı; cədvəl və s. | | | |
| 1 | **Sosial-hüquq xarakterli** | - | - | - | - |
| | *Əməkhaqqının və ya əmək stajının təsdiq edilməsi haqqında*** | - | 15 manat | 30 manat* | 45 manat* |
| | *Vətəndaşlıq Vəziyyəti Aktlarının Dövlət Qeydiyyatı üzrə sənəd barədə*** | - | 15 manat | 30 manat* | 45 manat* |
| | *Təltif edilmənin təsdiq edilməsi haqqında sənəd barədə*** | - | 15 manat | 30 manat* | 45 manat* |
| | *Daşınmaz əmlak üzərində əşya hüququnun təsdiq edilməsi haqqında*** | - | 15 manat | 30 manat* | 45 manat* |
| | *Digər mövzular*** | - | 15 manat | 30 manat* | 45 manat* |
| 2 | **Tematik** | - | 40 manat | 80 manat* | 120 manat* |
| 3 | **Geneoloji** | - | 200 manat | 400 manat* | 600 manat* |